**"Azərbaycan Hava Yolları" Dövlət Konserni tərəfindən 2 ədəd Boinq-757-200 sərnişin təyyarəsinin alınması ilə əlaqədar Sənədlər Toplusunu imzalamaq səlahiyyətlərinin verilməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

1. Mövcud təyyarə parkının yeniləşməsi zərurəti nəzərə alınaraq, 2 ədəd "Boinq-757-200" sərnişin təyyarəsinin alınması məqsədi ilə "Azərbaycan Hava Yolları" Dövlət Konserninin Baş direktoru Cahangir Cəlal oğlu Əsgərova aşağıdakı sənədləri (bundan sonra "Tənzimləyici Sənədlər") imzalamaq səlahiyyəti verilsin:

"Azərbaycan Hava Yolları" Dövlət Konserni, İcarəverən kimi "Caspian Leasing Ltd", İcarəverənin Baş Şirkəti "Caspian Leasing Trust"in Himayəçisi qismində çıxış edən "Caspian Trustee (Pvt ) Ltd .",İştirak Sazişinin I Əlavəsində sadalanan Zəmanətli Kredit verən maliyyə qurumları (bundan sonra "Zəmanətli Kreditorlar"), Zəmanətli Kredit Agenti qismində "Barklayz Bank PLC" (bundan sonra "Zəmanətli Kredit Agenti"), İştirak Sazişinin II Əlavəsində sadalanan "ECGD" Kreditorları qismində maliyyə qurumları (bundan sonra "ECGD " Kreditorları"), "ECGD" Kredit Agenti qismində "Barklayz Bank PLC" (bundan sonra ""ECGD" Kredit Agenti), İştirak Sazişinin III Əlavəsində sadalanan Təminatlı Kreditorlar qismində maliyyə qurumları (bundan sonra "Təminatlı Kreditorlar"), Təminatlı Kredit Agenti qismində "Barklayz Bank PLC" (bundan sonra "Təminatlı Kredit Agenti"), Təminat Himayəçisi qismində çıxış edən "First Union Trust Company, National Association" (bundan sonra "Təminat Himayəçisi"), Səhmdar Kommersiya "Azərbaycan Respublikası Beynəlxalq Bankı", Maliyyə Nazirliyi vasitəsi ilə çıxış edən Azərbaycan Respublikası, Təminatlı Kredit Riskinin iştirakçısı qismində "Rolls-Royce PLC", Böyük Britaniyanın Əlahəzrət Kraliçasının Ticarət və Sənaye Məsələləri üzrə Dövlət Nazirinin adından çıxış edən İxrac Kreditlərinin Zəmanəti Departamenti (bundan sonra "ECGD") və Birləşmiş Ştatların İxrac-İdxal Bankı (bundan sonra "Eximbank") tərəfindən və arasında bağlanılan İştirak Sazişini (bundan sonra "İştirak Sazişi");

"Azərbaycan Hava Yolları" Dövlət Konserni, "Caspian Leasing Ltd", Zəmanətli Kreditorlar, Zəmanətli Kredit Agenti, ""ECGD" Kreditorları", "ECGD" Kredit Agenti, Təminatlı Kreditorlar, Təminatlı Kredit Agenti, Təminat Himayəçisi, "ECGD" və "Eximbank" arasında Kredit Sazişini;

"Azərbaycan Hava Yolları" Dövlət Konserni ilə "Caspian Leasing Ltd" arasında İcarə Sazişini və Tənzimləyici Sənədlərdə tələb edilən və ya onlara aid olan sadalanan sənədlərə imza etmək hüququnun olduğunu xarici tərəfdaşlara çatdırmaq hüququ daxil olmaqla onun zəruri və məqsədəuyğun bildiyi şəkildə ehtiyat hissələrinin alqısı və maliyyələşdirilməsinə dair bütün sənədlər də daxil olmaqla başqa sənəd, saziş, müqavilə, təhvil, qəbul, elan, razılıq, imtina, dəyişiklik və öhdəlikləri.

2. Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini İlqar Fəti oğlu Fətizadəyə Azərbaycan Respublikası Hökuməti adından aşağıdakı sənədləri imzalamaq səlahiyyəti verilsin:

"İştirak Sazişi"ni;

Tənzimləyici Sənədlərdə göstərilmiş Maliyyə Nazirliyi İxrac Kreditləri Agentlikləri Zəmanətlərini;

Tənzimləyici Sənədlərdə göstərilmiş Maliyyə Nazirliyi Kommersiya Zəmanətlərini;

"Azərbaycan Hava Yolları" Dövlət Konserni, İcarəverən kimi "Caspian Leasinq Ltd", İcarəverənin Baş Şirkəti "Caspian Leasing Trust"in Himayəçisi qismində çıxış edən "Cas pian Trustee (Pvt) Ltd", İştirak Sazişinin I Əlavəsində sadalanan Zəmanətli Kredit verən maliyyə qurumları, Zəmanətli Kredit Agenti qismində "Barklayz Bank PLC", İştirak Sazişinin II Əlavəsində sadalanan Təminatlı Kreditorlar qismində maliyyə qurumları, Təminatlı Kredit Agenti qismində "Barklayz Bank PLC", Təminat Himayəçisi qismində çıxış edən "First Union Trust Company, National Association", Səhmdar Kommersiya "Azərbaycan Respublikası Beynəlxalq Bankı", Maliyyə Nazirliyi vasitəsi ilə çıxış edən Azərbaycan Respublikası və Birləşmiş Ştatların İxrac-İdxal Bankı tərəfindən və arasında bağlanılan ehtiyat hissələrinə aid İştirak Sazişini;

ehtiyat hissələrinə aid Maliyyə Nazirliyi "Eximbank " Zəmanəti və

ehtiyat hissələrinə aid Maliyyə Nazirliyi Kommersiya Zəmanəti.

3. Səhmdar Kommersiya "Azərbaycan Respublikası Beynəlxalq Bankı" İdarə Heyətinin sədri Fuad Namiq oğlu Axundova Azərbaycan Respublikası Hökuməti adından aşağıdakı sənədləri imzalamaq səlahiyyəti verilsin:

"İştirak Sazişi"ni;

Tənzimləyici sənədlərdə göstərilmiş Səhmdar Kommersiya "Azərbaycan Respublikası Beynəlxalq Bankı" İxrac Kreditləri Agentlikləri Zəmanətlərini;

Tənzimləyici sənədlərdə göstərilmiş Səhmdar Kommersiya "Azərbaycan Respublikası Beynəlxalq Bankı" Kommersiya Zəmanətlərini və

Tənzimləyici Sənədlərdə tələb edilən və ya onlara aid olan sadalanan sənədlərə imza etmək hüququnun olduğunu xarici tərəfdaşlara çatdırmaq hüququ daxil olmaqla onun zəruri və məqsədəuyğun bildiyi şəkildə ehtiyat hissələrinin alqısı və

maliyyələşdirilməsinə dair bütün sənədlər də daxil olmaqla başqa sənəd, saziş, müqavilə, təhvil, qəbul, elan, razılıq, imtina, dəyişiklik və öhdəlikləri.

4. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci, 2-ci və 3-cü bəndlərində göstərilən sənədləri imzalamaq səlahiyyətlərinin "Azərbaycan Hava Yolları" Dövlət Konserninin Baş direktoru Cahangir Cəlal oğlu Əsgərova, Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini İlqar Fəti oğlu Fətizadəyə və Səhmdar Kommersiya "Azərbaycan Respublikası Beynəlxalq Bankı"nın İdarə Heyətinin sədri Fuad Namiq oğlu Axundova verilməsi barədə xarici tərəfdaşlara müvafiq bildiriş göndərsin.

**Azərbaycan Respublikasının Prezidenti Heydər ƏlİyEV**

**Bakı şəhəri, 24 iyul 2000-ci il**
**№ 482**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 2988-2990.**